Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 65 (1193) 7 aprel - 8 aprel 2016-cı il

## MÜASİRLƏŞƏN MELİORASİYA VƏ İRRİQASİYA SİSTEMLƏRİ

### (mövzu əsasında XIX yazı)

**Azərbaycanda hələ sovet dövründə formalaşaraq su axınını bölüşdürən və tənzimləyən su anbarlarından, irriqasiya sistemlərindən, kollektor-drenaj şəbəkələrindən və mühafizə qurğularından ibarət geniş və mürəkkəb su təsərrüfatı kompleksi fəaliyyət göstərir. Bu kompleksin əsas hissəsi ulu öndər Heydər Əliyevin respublikaya ilk rəhbərlik dövrünün 70-80-ci illərində onun şəxsi təşəbbüsü ilə yaradılmış və müstəqillik dövründə inkişaf etmişdir.**

> **"... Biz çalışırıq ki, sizin bütün təkliflərinizi yerinə yetirək. Çünki bu, bizim iş prinsipimizdir. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Hər bir bölgədə quruculuq, inkişaf daha da sürətlə getməlidir".**
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi diqqəti sayəsində meliorasiya və su təsərrüfatı sahəsində islahatların dərinləşdirilməsi istiqamətində bir sıra əlavə tədbirlər işlənib həyata keçirilmiş, mühüm obyektlər inşa edilmişdir. Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadənin bildirdiyi kimi Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq meliorasiya və irriqasiya sistemlərinin lazımi səviyyədə istismarının təşkili, suvarılan torpaqların meliorativ vəziyyətinin, onların su ilə təminatının yaxşılaşdırılması məqsədilə mövcud suvarma kanallarının bərpası, yenidən qurulması, yenilərinin tikilməsi, subartezian quyularının qazılması, sel və daşqın təhlükəli çayların zərərli təsirlərinin qarşısının alınması üçün sahilbərkitmə tədbirlərinin aparılması, əlavə iş yerlərinin açılması üzrə ASC öz fəaliyyətini daha geniş və effektiv istiqamətdə davam etdirir.



### *Qabaqcıllardan biri - Qax SSİ*

Uğurların qazanılmasında təbii ki, ASC tərkibindəki qabaqcıl təşkilatların rolu böyükdür. Fəaliyyəti və qazandığı uğurları, eləcə ənənələri ilə həmişə diqqət mərkəzində olan təşkilatlardan biri də Qax Suvarma Sistemləri İdarəsidir. İdarəyə təcrübəli və tanınmış mütəxəssis Sultan Camalov rəhbərlik edir. Məlumat verərək bildirmək yerinə düşər ki, kollektivin uğurları və S.Camalovun fəaliyyəti müntəzəmliklə qiymətləndirilmişdir. Söhbətimiz zamanı idarənin rəisi təşkilatın fəaliyyətini konkret istiqamətlərlə şərh edir:

- Rayonun dağlıq ərazidə yerləşdiyini nəzərə alaraq dağ çaylarının, sel-sularının zərərli təsirinin qarşısını almaq və ərazidə yerləşən təsərrüfatların və əhalinin təhlükəsizliyini təmin etmək üçün mühafizə tədbirlərini həyata keçirmək əsas vəzifələrimizdəndir. Keçən il Kürmük çayının sağ sahilində Qax şəhərinin mühafizəsi üçün 140 p/m dəmir beton üzlüklü istinad divarı, eləcə Qax şəhəri və Əlibəyli kəndinin mühafizəsi üçün 78 p/m, İlisu kəndinin mühafizəsi üçün 72 p/m dəmir-beton üzlüklü istinad divarları da qurulmuşdur.

İdarənin maşın mexanizmdən ibarət texnikası kifayət qədərdir və yaradılmış bu imkandan faydalı şəkildə istifadə olunur. 2015-ci ildə əlavə olaraq bir neçə yeni texnikanın da idarənin balansına verildiyini qeyd etməliyik

### *Bəndlər möhkəmlənir*

Keçən il çaylar üzərində müəyyən bəndlərin də tikilib istifadəyə verilməsi diqqəti cəlb edir. Kürmük çayında, Qaxbaş kəndi ərazisində 350 p/m uzunluğunda, İbaxlı kəndinin mühafizəsi üçün 100 p/q uzunluğunda, Zərnə çayının sol sahilində 200 p/m uzunluğunda yeni bəndlər tikilmiş Ağçay kanalının (Qobala çayı) üzərində 340 p/m uzunluğunda əsaslı təmir işləri həyata keçirilmişdir.





### *Suvarma kanalları və digər mühüm qurğular*

Suvarma kanallarının mildən təmizlənmə işləri də keyfiyyətlə aparılmışdır. Rayonun Qorağan, Cəlayir, Dəymədağlı, Fıstıqlı, Təzəkənd, Almalı, Şotovar, Novlu, Tasmalı, Meşəbaş, Puşta və başqa kənd suvarma kanallarında 314.60 minkubmetr ekskovatorla, 186 minkubmetr buldozerlə, 1,5 minkubmetr isə fəhlə fiziki qüvvəsi ilə mildən təmizləmə işləri görülmüşdür.

Çay məcralarının təmizlənməsi istiqamətində xeyli tapşırıqlar yerinə yetirilmişdir. Ümumilikdə 1376 minkubmetr həcmində aparılan məcra təmizləmə işləri əsasən Kürmük, Qaşqaçay, Ağçay, Zərnə çaylarında həyata keçirilmişdir.

Beton və qabion bəndlərin qurulmasına 323408 manat vəsait sərf olunub. Bu işlər əsasən Kürmük çayının Qax şəhəri ərazisində, İbaxlı və Qaxingiloy kəndləri ərazisində görülmüşdür. Bundan əlavə 25 ədəd hidrotexniki qurğu, 15 ədəd hidropetrik postda, 2 km uzunluğunda beton kanallarda cari təmir işləri aparılmışdır.

Əsaslı təmir planı üzrə də kanallarda müəyyən işlər görülmüşdür. Qaxingiloy və Qax Muğaq kanallarında, Qapıçayda, İlisu suötürücüsündə və istehsalat bazasında bu istiqamətdə tapşırıqlar uğurla yerinə yetirilmişdir.

**Qax Suvarma Sistemləri İdarəsi 2016-cı ilin ilk rübündə də uğurlu nəticələr qazanmışdır. Kollektiv üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə ölkə iqtisadiyyatına öz layiqli töhvəsini verməyə çalışır.**

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ